

Ayaz Arabaçı



Mən bircə dənizdən küsə bilmədim,
Gəzdim sahilində qağayılarla.
Oynadım üstümə yüyürüb gələn,
Dalğaya çevrilən ağ ayılarla..

Hər gün ürəyimdə bir arzu tutdum,
Dedim, gəmilərin qulaqlarına...
Mən bircə dənizdən küsə bilmədim,
Dərdimi danışdım balıqlarına.

Gözümdə gül açdı qanlı lalələr,
Həsrətim sulara yağdı qar kimi.
Elə bil atların ayaqlarında,
Sular çilikləndi aynalar kimi.

Tökülüb göylərin pəncərəsindən,
Ulduzlar gözümə hopub qaldılar.
Yosun yorğanını salıb üstümə,
Ləpələr növbəylə layla çaldılar.

Dəyirdi dənizin dişi-dişinə,
Nəydi bu soyuqda məni isidən..
Bir fincan su alıb içdim yuxuda,
Əli ağ əlcəkli su pərisindən..

Baxdım ki, dənizi mənə qısqanıb,
Körpə qağayılar yuxumu didir.
Mən bircə dənizdən küsə bilmədim,
Ürəyim ovcumda su kimi idi..

Ağzına su alıb dayanmışdı ay,
Dənizlə keçirdim bütün gecəni,
Sən dəniz olmağı bacarmadın heç,
Bir də görüşünə çağırma məni...

* * *

Keçən il bu vaxt idi,
Qəlyanını yandırıb təzə sökülürdü dan.
Hava almağa çıxdım revanol iyi verən
Köhnə xəstəxanadan.
Yatmağa qoymamışdı gecə səhərə qədər
Başım üstə fırlanan məlun ağcaqanadın
Zəhtökən cır səsi.
Keçən il bu vaxt idi,
Üşüdürdü könlümü payız küləklərinin
İşıq dirəklərində çaldığı qış nəğməsi...
Aşıb-daşan, tükənməz parlaq ehtirasıyla
Çimdirirdi yağışlar narıncı köynəyini
Soyunmuş ağacları.
Gedirdim asta-asta cibimin ağuşunda
Saxta diaqnozların şəfasız ilacları.
Qarşıdakı binanın başında köhnə kran
Yellənirdi bozarmış sınıq bir daraq kimi..
Asılmışdı önümdə buludunu ağlamış
Səma, ağ varaq kimi.
Gözucu salam verib gözətçi timsalında
Gün keçirən qocaya,
keçib getdim qapıdan...
Dedim bir az dolaşıb qayıdacam "kapitan"...
Qəlyanını yandırıb təzə sökülürdü dan.
Zaman kürəklərində yerini rahatlayıb
Dərdin yetmiş ilini yükləmişdi dalına.,
Ömrün son mənzilinə yaxınlaşan gözətçi
Bürünmüşdü özünün çirkli, yun ədyalına.
Qəlyanını yandırıb təzə sökülürdü dan,
Nə qurtara bilərdi məni bu "katorqadan"..
Endim baş alıb gedən uzun və boş küçəylə
Tank altda qalıb-çıxmış
Qəzet köşkünə sarı.
Hələ açılmamışdı bahalı marketlərin
Ağır göz qapaqları...
Keçən il bu vaxt idi,
Qoşulub içimdəki dəli bir burulğana
Çıxıb xəstəxanadan gəzirdim veyil-veyil,
Həkim domba gözüylə baxıb kardioqrama
Əzəmətli nidayla,
Demişdi ki, vəziyyət çox da qorxulu deyil....

* * *

Uçub bir gün yolum üstə saldığın,
Lələk məni ayağına gətirdi.
Mən gəlmirdim, eşq adında bir şirin,
Kələk məni ayağına gətirdi..

Demirəm ki, könlüm yetim deyildi,
Yaşayırdım, ölüm-itim deyildi,
Bu tək mənim cəsarətim deyildi,
Fələk məni ayağına gətirdi.

Can vermirdim, qol qoymurdum hər sözə,
Dayanmışdım min-min dərdnən göz-gözə,
Başım göynən gedən vaxtı bir gözəl,
Mələk məni ayağına gətirdi.

Lələ döndü barmağımı basdığım,
Pərqulandı daş yuxulu yastığım,
Buludların sinəsinə yazdığım,
Dilək məni ayağına gətirdi.

İllər məni sazaq kimi kəsirdi,
Mən bilmərəm sən bilərsən nə sirdi..
Bütün günü sizə tərəf əsirdi,
Külək məni ayağına gətirdi..

Səndən cavab gəlməyincə ta ki, mən...
Elə bilmə ürəyimə hakiməm,
Nə sözün var ürəyə de mən kiməm,
Ürək məni ayağına gətirdi..

* * *

Bir bahar ayılıb gözlərindəki,
Bir ovuc yağışa bələrsən məni.
Burub qulağını ayaqlarının,
Çıxıb getdiyintək gələrsən məni..

Yol yolu incitməz, söz-sözü atmaz,
Həsrətin köpürən çayları yatmaz,
Və bir gün əllərin heç yana çatmaz,
Baxıb yetim-yetim mələrsən məni.

Sinəmdə dağların xeyli yaşlaşıb,
Qranit olurmuş sevgi daşlaşıb,
Adın ürəyimdə tatuajlaşıb,
Çətin ki, könlündən silərsən məni.

Coşub kükrəyərsən fəvvarələrdən,
Düşərsən uçduğun səyyarələrdən,
Bütün gəmilərdən, təyyarələrdən,
Bütün qatarlardan dilərsən məni.

Ruhumu ruhunda daşıyammadın,
Özün bu atəşdə yaxşı yanmadın,
Bircə gün doyunca yaşayammadın,
Gündə neçə dəfə ölərsən məni.

Bir sarı vərəqdə çırpınır canım,
Gəl tök, hər üzünə haladı qanım,
Nə nömrəm dəyişib, nə də ünvanım,
Hər zaman axtara bilərsən məni.

Bəlkə son arzuyam, son umudam mən,
Bəlkə də simləri sınmış udam mən,
Ovcuna sığınmış bir buludam mən,
Harda yanan varsa çilərsən məni.

* * *

Demə ki, mən səndə ürək tapmadım,
Varıydı, odlara yaxdım, olanda.
Qopardıb sinəmdən altun üzüktək,
Cəlladın birinə taxdım olanda.

Yaram çox dərindi, qaşıma-mənim,
Nələr gəlməyib ki, başıma mənim,
Sən niyə çıxmırdın qarşıma mənim,
Şah oğlu şah kimi taxtım olanda.

Bu köksü dağ kimi necə irildim,
Bir ömrü min dəfə ölüb dirildim,
Nə adı ad kimi qoruya bildim,
Nə cana can kimi baxdım, olanda.

Bu söhbət çox uzun vaxt aparandı,
Dərədi-təpədi, dağdı-arandı,
Qurğuşun-qurğuşun dərdlər yarandı,
Bir dəfə qızıldan baxtım olanda.

Körpə inadında bir az da bərkin,
Qurtarsın bu cəza, bu həbs, bu sürgün,
Sənə gözlədiyin məktubu bir gün,
Oturub yazacam vaxtım olanda.

* * *

Gözlədinmi sonuncu,
Naxış pozulanadək..
Gözündəki beş illik,
Yuxun yozulanadək.
Daha mən o yolları,
Öpüb-əzizləmirəm.
Özümdən zəhləm gedir,
Heç kimdən gizləmirəm.
Saxta rəqəmlər kimi,
Sözüm yerinə düşmür.
Sənsizlik ağrıları -
Dərmanlarla ötüşmür.
Bəzən heç narkozla da,
Ağrım-acım azalmır.
Azalmır, sənə olan -
Ehtiyacım azalmır.
Hökmən səndən nəsə var,
Hər udduğum qəhərdə.
İynə kimi itmisən,
Bakı boyda şəhərdə.
Üzümü yumşaq görüb,
Qəmlər ürəkli gəlir.
Xatirələr üstümə,
Toplu-tüfəngli gəlir.
Gedib sənə çatırmı.
Dərdlərin çıxıntısı.
Ucuz bir qorxu imiş,
Pul-para sıxıntısı.
Heç nə dəyişməyib ki,
O sıxıntı yenə var.
Yedi-bitirdi bizi,
Pul deyilən canavar.
Ağ da qara kimidi,
Səndən sonra gözümdə,
İndi daha heç nəyə,
Güc tapmıram özümdə.
Sənsizlik hər gün məni,
Öldürür qəşəng-qəşəng.
Bir gün mənə zəng elə,
Gəlim, gedək dərdləşək.
Dəyişməyib bu illər,
Sənə sevgimi heç də.

